*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   14 noyabr 2018-ci il   № 88 (2304)   Qiyməti 25 qəpik


# Konstitusiya - siyasi, hüquqi sənəd

## Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikası Konstitusiyasının 23-cü ili

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra qanunçuluq ideya və dəyərlər kimi Konstitusiya ilə təsbit edildi. Dövlətin qüdrəti, beynəlxalq nüfuzu həm də onun milli iradəni nə dərəcədə ifadə etməsilə ölçülür. Demokratiya yeni dünya nizamına uyğun olaraq, bir dövlətin öz milli iradəsinə qarşı beynəlxalq güclərə etdiyi güzəştlər sistemi deyil, əksinə, milli sınaqlar sistemi və bu baxımdan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üçün yaratdığı sarsılmaz təminatdır.

Konstitusiya vətəndaşlıq sistemi olmaq etibarilə dövlət və xalq arasında ən mühüm ictimai münasibətləri tənzimləyir, konstitusion quruluşun, dövlət hakimiyyəti təşkilinin əsaslarını əks etdirir. Məhz buna görə ən ali qanundur. Konstitusiya ona görə "Əsas Qanun" adlandırılır ki, o, ictimai həyatın bütün sahələrini əhatə edən münasibətləri nizama salır, habelə cəmiyyətdə siyasi sabitliyin, ümumi maraqların təminatçısıdır. Dövlətin statusunu, fəaliyyət konsepsiyasını, nəzərdə tutulan prioritetlərini əks etdirir. Şəxsiyyət, cəmiyyət və dövlət arasında münasibətlərin sivil, bəşəri qaydalarını müəyyən edir.

Hazırlanması və qəbul edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin dönməz iradəsi, gərgin əməyi, dərin hüquq düşüncəsi və siyasi uzaqgörənliyi nəticəsində mümkün olan Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün - 12 noyabr hər il ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

Konstitusiyamız azad düşüncə, bərabərlik, dini inanclara hörmətlə yanaşma, vətəndaşlığa ehtiram Konstitusiyasıdır.

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra olduqca çətin şəraitdə, siyasi-hüquqi, sosial-iqtisadi vəziyyətin ağır olduğu bir dövrdə ölkənin ali hüquqi qüvvəyə malik sənədini - Konstitusiyasını hazırlamaq, özü də müxtəlif siyasi qüvvələrin təsirindən azad, demokratik dəyərlərə əsaslanan, xalqın iradəsini tam əks etdirən bir formada qəbul etmək olduqca çətin idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xüsusi həssaslıq və güclü siyasi iradə tələb edən məsələni həll etdi.

1995-ci ildə Konstitusiyanı ümumxalq səsvermə sinə hazırlamaq məqsədilə Komissiya yaradıldı. Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirildi. İclasda ölkənin təcrübəli və yüksək təhsilli hüquqşünasları, dövlət hakimiyyətinin hər üç qolundan olan nümayəndələr, ziyalılar, alimlər iştirak etdilər. Əsas Qanunun baza müddəaları, daha sonra isə onun layihə mətni ictimai müzakirəyə çıxarıldı. Ümummilli lider Heydər Əliyev Konstitusiyanı belə qiymətləndirirdi: "Bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var ki, deyəm, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam. Onun bu gün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altına imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bəyan edirəm".

### Ümummilli lider Heydər ƏLİYEV:

*Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.*



1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək ümumxalq səsverməsi - referendum yolu ilə ilk milli Konstitusiyasını qəbul etdi. Konstitusiyada demokratik təsisatlar, hüquqi dövlətin atributları, hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları və onların təminatı kimi mütərəqqi müddəalar öz əksini tapmışdı. Dövlət müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi bəşəri niyyətlər də ifadə edilib ki, bu da onun demokratik dəyərlərini əks etdirir və hüquqilik dəyərlərinə, demokratiklik əlamətlərinə görə dünyanın bir çox inkişaf etmiş dövlətlərinin konstitusiyaları ilə müqayisədə daha təkmil, daha əhatəlidir.

Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoyan ilk Konstitusiyamız 5 bölmədən, 12 fəsildən, 158 maddədən ibarətdir.

Konstitusiyamızda Silahlı Qüvvələr və digər hərbi birləşmələrlə bağlı prinsiplər də öz əksini tapıb. "Dövlətin əsasları" fəslinin 9-cu maddəsində deyilir:

**(Ardı 2-ci səhifədə)**

# ABŞ generalı: “Azərbaycan sülhməramlıları nümunəvi xidmətləri ilə Əfqanıstanda həyata keçirilən missiyada fərqlənirlər”

*Noyabrın 9-da Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Azərbaycanda səfərdə olan ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyonsun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqları salamlayan Baş Qərargah rəisi yeni vəzifəyə təyin olunması münasibətilə general S.Lyonsu təbrik edib və gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Regiondakı hərbi-siyasi və cəbhə xəttindəki hazırkı vəziyyətə toxunan general-polkovnik Nəcməddin Sadıkov Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin davam etdiyini bildirərək münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinin mümkün olduğunu diqqətə çatdırıb.

Azərbaycan-ABŞ münasibətlərinin ikitərəfli və NATO-nun müxtəlif proqramları çərçivəsində, o cümlədən təhsil sahəsində inkişaf etdiyini qeyd edən general-polkovnik Nəcməddin Sadıkov bildirib ki, ölkələrimiz arasında müdafiə sahəsində, xüsusilə nəqliyyat komandanlığı ilə əməkdaşlıq yüksək səviyyədə davam etdirilir.

Dövlət Bayrağı Günü münasibəti ilə Azərbaycan tərəfini təbrik edən ABŞ generalı yeni vəzifədə ilk rəsmi xarici səfərini məhz ölkəmizə etməsindən məmnun olduğunu ifadə edib. Qonaq ölkəmizin Əfqanıstandakı sülhməramlı missiyaya verdiyi töhfəni yüksək qiymətləndirərək bu sahədə fəal əməkdaşlığa görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirib.

Azərbaycan sülhməramlılarının xidmətini nümunəvi adlandıran general S.Lyons Əfqanıstanda həyata keçirilən missiyada hərbi qulluqçularımızın iştirakını Azərbaycan-ABŞ və Azərbaycan-NATO əməkdaşlığının əhəmiyyətli hissəsi olduğunu da vurğulayıb.

Görüşdə ikitərəfli hərbi əməkdaşlığa dair fikir mübadiləsi də aparılıb.

## Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş Türkiyə Respublikasının Hakkari bölgəsində silah anbarında baş vermiş partlayış nəticəsində həlak olan hərbçilərlə bağlı Türkiyənin Milli Müdafiə naziri cənab Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülərə başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Qardaş Türkiyə Respublikasının Hakkari bölgəsində silah anbarında baş vermiş partlayış nəticəsində hərbi qulluqçuların həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

# Baş Qərargah rəisi təlimlərin gedişi ilə bağlı məruzələri dinləyib

*Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov komanda-qərargah hərb oyunlarının (KQHO) keçirilməsi ilə bağlı rəhbər heyətlə müşavirə keçirib.*



Döyüşü idarəetmə mərkəzində keçirilən toplantıda bildirilib ki, KQHO planına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissələri həyəcan siqnalı ilə qaldırılaraq qoşunlar tam döyüş hazırlığı vəziyyətinə gətirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müşavirə zamanı əsas, ehtiyat və qoşunların komanda məntəqələri ilə birbaşa videobağlantı qurulub, PUA və digər texniki vasitələrin istifadəsi ilə şərti düşmənin müdafiəsinin ön xəttində və dərinliyindəki mövqelər və real şərait izlənilib.



General-polkovnik Nəcməddin Sadıkov təlimlərin gedişi, həmçinin əməliyyat, kəşfiyyat, aviasiya, raket-artilleriya imkanları ilə bağlı məruzələri dinləyib və müvafiq tapşırıqlar verib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

*13 noyabr 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

(Əvvəli 1-ci səhifədə)

**1. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.**

**2. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münasibətlərin həll üsulu kimi müharibəni rədd edir.**

**3. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.**

Bu maddənin əsas mahiyyəti Azərbaycanın öz ordusunu yaratmaqla heç bir qəsbkarlıq niyyəti güdmədiyindən, yalnız öz torpaqlarını təcavüzlərdən qorumağı yeganə məqsəd hesab etməsindən ibarətdir. Ali Baş Komandan İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan üçün ordu quruculuğunu inkişaf etdirmək və hərbi potensialı artırmaq beynəlxalq hüquqla tanınan ərazilərinin işğaldan azad edilməsindən irəli gəlir.

Vətənimizin ərazi toxunulmazlığı və sərhədlərimizin qorunması da Konstitusiyamızda tam ifadə edilib. Qeyd olunub ki, Azərbaycanın sərhədləri heç bir müdaxilə yolu ilə dəyişdirilə bilməz və onun qorunması dövlətə məxsus olan silahlı birləşmələr tərəfindən təmin edilir.

## Konstitusiya - siyasi, hüquqi sənəd

"Vətəndaşların əsas vəzifələri" bölməsinin **76-cı maddəsində** göstərilir: **"Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər".** Vətənimizin etibarlı müdafiəsi, dövlətin əsas dayaqlarından biri kimi orduya diqqət göstərilməsi də Konstitusiyada öz əksini tapıb. Deməli, torpaqlarımızın müdafiəsində dayanmaq və ölkəni xarici hərbi müdaxilələrdən qorumaq hər bir vətəndaşın konstitusion borcudur. Əgər vətəndaş qanunla müəyyən edilən yaş həddində hərbi xidmətə cəlb edilirsə, bu, onun Qanun qarşısında öhdəliyidir və hər bir vətəndaş bu vəzifəni mütləq yerinə yetirməlidir.

Demokratik dövlətlərdə hakimiyyət yalnız xalqın iradəsi əsasında formalaşa bilər. Xalqın iradəsi ilə qəbul edilmiş Konstitusiyamız xalqın Konstitusiyasıdır. Azərbaycan xalqını dövlət hakimiyyətinin yeganə mənbəyi hesab edən Konstitusiyamızda sərbəst və müstəqil öz müqəddaratını həll etmək, öz idarəetmə formasını müəyyən etmək xalqın suveren hüququ kimi təsbit olunur.

Konstitusiyamızın müddəalarından irəli gələrək dövlətin ali məqsədi sayılan insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən çoxşaxəli islahatlar həyata keçirilir.

Müstəqilliyimizin əsas dayaqlarından olan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi də Azərbaycanın qüdrətli dövlət olaraq beynəlxalq aləmdə nüfuz sahibi kimi tanınmasına xidmət edir. Bu gün ordumuzun sıralarında xidmət edən gənclər Konstitusiyamızdan irəli gələn tələbləri Vətənimizə layiqincə xidmət etməyin məsuliyyətini dərindən başa düşürlər. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordunun şəxsi heyəti qarşısında qoyduğu əsas tələb də məhz Vətənə, dövlətə və xalqa şərəfli xidmət nümunəsi göstərməkdən ibarətdir. Müdafiə naziri zabit və əsgərlərlə görüşlərində tövsiyə edir ki, dövlət rəhbərliyinin və xalqın etimadını layiqincə doğrultmaq əsas vəzifədir.

Bu vəzifə Konstitusiyamızda təsbit olunmuşdur.

**"Azərbaycan Ordusu"**

# Dövlət Bayrağı Günü münasibətilə hərbi hissələrdə “Açıq qapı” günü və andiçmə mərasimi keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, noyabrın 9-da Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış oldu, xidməti, inzibati binalara, əsgər yataqxanalarına və yeməkxanalara baş çəkdilər. "Açıq qapı" günü çərçivəsində komandanlıqla valideynlərin görüşlərində hərbi qulluqçuların xidməti ilə bağlı onları maraqlandıran məsələlər müzakirə edildi, suallar cavablandırıldı.*



"N" hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi və “Açıq qapı” günü keçirildi.

Hərbi hissədə təşkil edilmiş mərasimdə rituala uyğun olaraq, döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edildi və tədbir açıq elan olundu.

Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev gənc əsgərləri və valideynləri əlamətdar gün münasibətilə təbrik etdi:

- Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində möhkəmlənib və yeni inkişaf mərhələsinə qədəm qoyub. Sizlər bu gün ikiqat bayram sevinci ilə Hərbi and içərək güclü ordunun ayrılmaz tərkib hissəsi olacaqsınız. Əziz valideynlər, bu gündən övladlarınız tamhüquqlu əsgərdirlər. Qarşınızda hərbi mundir geyinərək məğrur dayanan əsgərlərimiz Ali Baş Komandanın əmri ilə Qarabağımızı işğaldan azad edəcəklər. Bayraq günündə içdikləri anda sadiq qalaraq üçrəngli bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə və digər işğalda olan torpaqlarımızda dalğalandıracaqlar. Ölkə rəhbərliyinin orduya göstərdiyi diqqət və qayğı nəticəsində islahatlar aparılır, yeni silah-texnika alınır. Nəticədə Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Övladlarınız qüdrətli ordunun nümayəndəsidir. Bir daha hər birinizi öz adımdan, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edirəm.

General-mayor Mayis Bərxudarov valideynlərə gözaydınlığı verdi, onlara Vətənə sədaqətli oğul böyütdükləri və tərbiyə etdikləri üçün minnətdarlığını bildirdi. Gənc əsgərlərə Vətənə şərəflə xidmət etməyi, hərb işinə dərindən yiyələnməyi, komandir və rəislərin əmr və tapşırıqlarını vaxtında, sözsüz yerinə yetirməyi tövsiyə etdi.

Gənc əsgər anası Dilbər Vəliyeva sevincini tədbir iştirakçıları ilə bölüşdü: "Övladımın Vətənin xidmətində dayanmasından iftixar hissi duyuram. Bu gün bayraq günündə içdiyiniz anda sadiq qalaraq bayrağımızı işğalda olan torpaqlarımızda dalğalandırmaq sizin borcunuzdur. Azərbaycan xalqının əsgərinə etimadı sonsuzdur. Sizlərinsə borcu Vətənə layiqli xidmət edərək etimadı doğrultmaqdır."

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi and içən əsgərləri hərbi vətənpərvərlik mahnıları ilə təbrik etdikdən sonra gənc əsgərlər nizami addımlarla tribuna önündən keçdilər.

Andiçmə mərasimindən sonra "Açıq qapı" günü tədbiri general-leytenant Kərim Vəliyevin əsgər valideynlərini hərbi hissə ilə tanış olmağa dəvəti ilə başladı. Əsgərlərin qida rasionu və hərbi texnika ilə tanış olmaq üçün yaradılan şərait hər kəsin ürəyincə idi. Valideynlər əsgərlərin sosial-məişət şəraiti ilə yaxından tanış oldu, əsgər yataqxanasına, yeməkxanasına, eləcə də hərbi hissənin qərargahına baş çəkdilər.

Nazir müavini valideynlər qarşısında çıxış edərək bildirdi ki, Azərbaycan Ordusu qısa zaman ərzində böyük inkişaf yolu keçib. "Azərbaycan Ordusu ona görə tez bir zamanda tam formalaşdı və inkişaf etdi ki, onun təməlini ulu öndər Heydər Əliyev çox dahiyanə və uzaqgörənliklə qoyub. Qüdrətli Azərbaycan Ordusunun formalaşması hər bir Azərbaycan vətəndaşının arzusu idi. Artıq bu arzu deyil, reallıqdır! Bu gün ordumuzun qarşısında duran əsas vəzifə odur ki, Ali Baş Komandan əmr verərsə, torpaqlarımız müharibə yolu ilə işğaldan azad edilsin! Azərbaycan Ordusu tarixi vəzifənin öhdəsindən gəlməyə tam hazırdır! Azərbaycan Ordusu müstəqilliyimizi əbədi qorumaq, ərazi bütövlüyümüzü bərpa etmək gücündədir!"

Hərbi hissənin ərazisini valideynlərlə birgə gəzən general-leytenant Kərim Vəliyev onları maraqlandıran suallara cavab verdi və əsgərlərlə birgə nahar etdi.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

* * *



"N" hərbi hissəsində təntənəli andiçmə mərasimi və Dövlət Bayrağı Gününə həsr olunan "Açıq qapı" günü keçirildi. Mərasim iştirakçıları əvvəlcə Ulu Öndərin hərbi hissədə yerləşən büstü önünə gül dəstələri qoyaraq, xatirəsini dərin ehtiramla yad etdilər. Nümunəvi orkestrin ifası ilə döyüş bayrağı sıra meydanına gətirildi.



Polkovnik Rəşid Tinayev andiçmə mərasiminə başlanması üçün gənc əsgər bölməsinin komandirinə göstəriş verdi. Gənc əsgərlər ordu sıralarına daxil olaraq, Vətənimizə və onun xalqına sadiq qalacaqlarına, ərazi bütövlüyümüzün və suverenliyimizin müdafiəsinə hər an hazır olacaqlarına and içdilər.

General-leytenant Rövşən Əkbərov çıxış edərək Hərbi andı qəbul edən əsgərləri və onların valideynlərini təbrik etdi: "Əziz əsgərlər, bu gün həyatınızda ən əlamətdar günlərdən biridir. Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olaraq Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağınıza and içdiniz. Hərbi and ordumuzun hər bir zabit və əsgəri üçün Vətən qarşısında dönməz sədaqətin ifadəsidir, pozulmaz qanundur, hətta ölüm təhlükəsi belə Azərbaycan əsgərini içdiyi andı pozmağa məcbur edə bilməz. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hərbi xidmətə yüksək dəyər verərək dediyi "Orduda xidmət etmək Azərbaycanın hər bir vətəndaşının şərəfli borcudur. Müstəqil Azərbaycan Respublikasının Milli Ordusunda xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır. Fəxr edə bilərsiniz. Fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir" sözləri hər birimiz üçün qürur mənbəyidir."

General-leytenant Rövşən Əkbərov tədbir iştirakçılarını Dövlət Bayrağı Günü münasibətilə də səmimi qəlbdən təbrik edərək çıxışını ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində söylədiyi "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!" sözləri ilə bitirdi.

Çıxış edən general-mayor Mehman Baxışov andiçmə və Dövlət Bayrağı Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək həm şərəfli xidmətlərində, həm də şəxsi işlərində uğurlar arzuladı. "Andiçmə günü əsgərlərlə yanaşı, onların valideynləri üçün də qürurlu gündür. Artıq övladlarınız bizə əmanətdir. Onlar doğma ordumuzun əsgərləri, Vətənimizin müdafiəçiləridirlər. Təlim dövründə övladlarınıza silah və texnikalardan, döyüş hazırlığından və digər hərbi fənlərdən dərslər keçiriləcək, onlar bacarıqlı, cəsur, qorxmaz əsgərlər kimi formalaşacaqlar. Müdafiə nazirinin tapşırığına əsasən, hərbi hissələrimizdə "Açıq qapı" günlərinin keçirilməsi ordumuzda artıq dəyərli bir ənənəyə çevrilərək, xalqla ordunun sıx əlaqəsini təmin edir. Belə tədbirlərdə siz əsgərlər üçün yaradılan məişət şəraiti ilə yaxından tanış olursunuz. Şahidi olursunuz ki, övladlarınızın uğurlu xidmət etməsi üçün hər cür şərait yaradılıb. Belə yüksək məişət şəraiti Ali Baş Komandan cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan əsgərinə olan diqqət və qayğısının bariz nümunəsidir."

Mərasimdə iştirak edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt idarəsinin rəisi polkovnik Natiq Qarayev, Yeni Azərbaycan Partiyasının Sumqayıt şəhər təşkilatının sədr müavini Vəzirxan Ənsərov, əsgər valideyni Mirzəxan Abbasov və digərləri də Hərbi andı qəbul etmiş əsgərləri təbrik edərək şərəfli xidmətlərində uğurlar arzuladılar.

**(Ardı 4-cü səhifədə)**

# Dövlət Bayrağı Günü münasibətilə hərbi hissələrdə “Açıq qapı” günü və andiçmə mərasimi keçirildi



(Əvvəli 3-cü səhifədə)

Sonra tədbir iştirakçıları, valideynlər komandanlıqla birgə övladları üçün yaradılmış şəraitlə tanış oldular, yataqxanaya, camaşırxanaya, yeməkxanaya və digər məişət otaqlarına baxdılar. Əsgər yeməkxanasında övladları ilə birgə nahar etdilər. Qadın aşpazlar tərəfindən hazırlanan yeməklərin keyfiyyətindən və dadından razılıq üzlərdəki təbəssümdən hiss olunurdu. Əsgər valideynləri Yamən Məmmədov, Telli Cabbarova, Rəfael Mustafayev, Amil Qəniyev, İntiqam Musayev, Rəhman Mansurov və digərləri övladları üçün yaradılmış yüksək məişət şəraitindən razı qaldıqlarını vurğulayaraq Ali Baş Komandana və Müdafiə nazirinə təşəkkürlərini bildirdilər.

Sonra general-leytenant Rövşən Əkbərov əsgərlərlə birgə Dövlət Bayrağı Günü münasibətilə hazırlanmış tortu kəsdi və tədbir konsert proqramı ilə davam etdi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

* * *

Xalqımız üçün əlamətdar bir payız günündə duyğularına xoş ovqat qataraq gənc əsgərlərin andiçmə mərasiminə gələn valideynlərlə "N" hərbi hissənin qarşısında rastlaşırıq. Valideynlərin gözlərindəki sevinci, başımızın üstündəki aydın səmanı, əzəmətli dağları xatırladan sıra meydanını və bu möhtəşəm mənzərədən, həmahəngllikdən duyğulanaraq sıralanan göz yaşlarını görmək üçün iki göz lazım idi. Bu bütövlük və paklıq anı üçün yüzlərlə kilometr yolu qət etməyə dəyərdi. Mənə elə gəlir ki, burada olan sevgi hərbi hissənin ərazisinə sığmır. İnsanların gözündə sevinc parıltısı görünür. Elə bil onlar üçün zaman ötüşmür.

Nəhayət, həsrətə son qoyulur. Valideynlər və ictimaiyyət nümayəndələri hərbi hissənin ərazisinə daxil olurlar. İnsanda elə bir duyğu yaranır ki, sanki sevgi ilə əhatələnən bir məkandasan. İnsanların qəlblərində gəzdirdikləri duyğuları və gözlərindəki ifadələr bir çox mətləblərdən xəbər verir. Bu ifadələrdə sevinc hiss olunur, inam hiss olunur, Azərbaycan əsgərinə güvənc hiss olunur...

İlk olaraq Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev andiçmə mərasiminə toplaşan valideynləri, ictimaiyyət nümayəndələrini bayram münasibətilə təbrik etdi.

General-mayor Rasim Əliyev bildirdi ki, ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. "Özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayraq xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir.

Dövlət rəmzimizin yaranma tarixinə də nəzər salan idarə rəisi qeyd etdi ki, qürur mənbəyimiz olan müqəddəs üçrəngli bayrağımız 1918-ci ilin 9 noyabrında qəbul olundu və dalğalanmağa başladı. "Türkçülük, müasirlik, islamlaşmaq ideyaları üçrəngli bayrağımızda öz əksini tapmaqla yanaşı, Azərbaycan dövlətinin öz



inanclarına, öz dəyərlərinə sadiqliyindən xəbər verirdi. Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün uzun olmaması səbəbindən uzun illər bayrağımızın başımızın üzərində dalğalanmasını müşahidə edə bilmədik. XX əsrin sonlarında Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu, üçrəngli bayrağımız dalğalanmağa başladı.

Belə ki, 17 noyabr 1990-cı il tarixində ümummilli lider Heydər Əliyevin təklifi ilə üçrəngli bayrağımız Naxçıvan Ali Məclisinin qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olundu. Eyni zamanda, Azərbaycan Respublikasının Ali Sovetinə təklif olundu ki, üçrəngli bayrağımız Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilsin. Daha sonra üçrəngli bayraq bütövlükdə Azərbaycanın Dövlət bayrağı kimi qəbul olundu. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycanda Dövlət Bayrağı Gününün təsis edilməsi barədə sərəncamı siz gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu əziz gündə arzumuz odur ki, Ali Baş Komandanın əmri ilə tezliklə torpaqlarımız işğaldan azad edilsin və müstəqil Azərbaycanımızın üçrəngli bayrağı daim zirvələrdə dalğalansın!"

General-mayor Mübariz Rzayev isə çıxışı zamanı qeyd etdi ki, Azərbaycanın məcburi şəkildə cəlb edildiyi müharibə şəraitində düşmənlə mübarizənin təşkilində əsas işi ordumuz həyata keçirir. Buna görə də ordu quruculuğu, döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, maddi-texniki bazanın inkişaf etdirilməsi Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrimizin rəhbərliyi qarşısında əsas tapşırıq kimi qoyulur.

Əsgər atası Məhərrəm Həsənov dedi ki, dövlətimizin üçrəngli bayrağı Azərbaycanın suverenliyinin və müstəqilliyinin rəmzidir. "Bayraq tarixən hər bir xalq üçün müqəddəs olub. İnsanlar öz dövlətlərinin bayraqlarına həmişə ehtiramla yanaşıblar. Ona görə də bayraq insanlar, xalqlar üçün həmişə müqəddəs hesab edilib. Bu mənada ölkəmizdə Dövlət Bayrağı Gününün qeyd olunması həm dövlətimiz, həm də xalqımız üçün olduqca əlamətdar bir hadisədir".

Əsgər anası Şəlalə Pənahova bildirdi ki, hər bir soydaşımız dünyanın aparıcı orduları sırasında layiqli yer tutan Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçirir. Ordumuz son illərdə bütün cəbhəboyu əməliyyat şəraitinə nəzarət etməklə tam hərbi üstünlüyə yiyələndiyini sübuta yetirir.

Qarabağ müharibəsi veteranı Mövlan İsmayılov özündən əvvəlki natiqin sözünü təsdiq edərək qeyd etdi ki, bu gün aprel döyüşləri, Günnüt zəfəri Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasında olduğunu təsdiqlədi. Bütün dünyaya sübut etdik ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdı. Ordumuzun son vaxtlardakı uğurları, hərbçilərimizin vətənpərvərlik ruhu, düşmən atəşlərinin qarşısını mərdliklə almaları, işğalçı Ermənistan ordusunun təxribat xarakterli hərəkətlərinə vaxtında və layiqli cavab verilməsi hər birimizin sabaha olan inamını daha da artırır.



Rəsmi hissə başa çatdıqdan sonra valideynlərlə görüşmək imkanı qazanırıq.

Astaradan gələn əsgər atası Şirzad Məmmədov oğlunun hərbi andiçmə mərasimində iştirakını ömrünün ən xoş anları hesab edir: "Mən xoşbəxtəm ki, Vətənini, millətini, torpağını sevən oğulların sırasına qatılan bir oğul atasıyam. İnanıram ki, o da Vətəninə, xalqına, dövlətinə sədaqətlə xidmət edən oğullardan olacaq. Mən də bir valideyn kimi fəxr edəcəm ki, oğlum Vətənin müdafiəsində duranların, düşmənə gözdağı olanların, işğal altındakı torpaqlarımızın azad olunması uğrunda son damla qanına qədər döyüşənlərin, içdiyi anda sadiqlik nümayiş etdirənlərin sırasındadı".

Əsgər anası Nigar Qurbanəliyeva isə bildirdi ki, gənc əsgərlərin belə bir əlamətdar gündə ordu sıralarına qədəm qoyması, Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə həmişə hazır olacaqlarına, bu yolda canını və qanını əsirgəməyəcəklərinə and içmələri xüsusi əhəmiyyət daşıyır. Bayrağımız Qarabağımızda, Laçınımızda, Şuşamızda, Xankəndimizdə, Xocalımızda və işğal altında olan digər ərazilərimizdə dalğalanmağın intizarındadı. Üçrəngli Azərbaycan bayrağı həmin tarixi torpaqlarda dalğalanacağı günü səbirsizliklə gözləyir. İnanırıq ki, həmin günü, oğlum da daxil olmaqla, Azərbaycan zabiti və əsgəri reallaşdıracaq!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

* * *

Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra gənc əsgərlər Vətənə sədaqət andı içdilər.

Tədbirdə zabit, əsgər və valideynlər gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik etdilər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu Komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırıldı. Bildirildi ki, bu gün komandirlərinin və valideynlərinin şahidliyi ilə Vətənə sədaqət andı içən gənc əsgərlərimiz təntənəli surətdə söz verdilər ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəklər. Hərbi anda sadiq olmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir. Məhz buna görə də başı üzərində şərəf və namus simvolu olan Azərbaycan bayrağı dalğalanan əsgərlərimizin şücaəti düşmənlərimiz üçün gözdağı, xalqımız üçün isə fəxr və qürur mənbəyidir.

Şəxsi heyətin tribunanın önündən təntənəli keçidindən sonra əsgər valideynləri və yaxınları hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış oldular. Valideynlər yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirdi və övladlarının Hərbi andı qəbul etmələrindən qürur hissi keçirdiklərini ifadə etdilər.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

(Ardı 5-ci səhifədə)

# Dövlət Bayrağı Günü münasibətilə hərbi hissələrdə “Açıq qapı” günü və andiçmə mərasimi keçirildi

(Əvvəli 4-cü səhifədə)



Birazdan yeni günün səhəri açılacaq. Dünyada yaşayan başqa millətlər üçün bu gün adi bir iş günüdür. Amma Azərbaycan xalqı üçün bu gün əlamətdardır. Dövlət Bayrağı Günü ölkəmizin hər bir regionunda böyük təntənə ilə qeyd edilir. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Ordusunun və Bakının işğaldan azad olunmasının 100 illik yubileyləri yüksək səviyyədə qeyd olundu. Bayrağımızın da 100 illiyi münasibətilə ölkəmizdə bayram tədbirləri keçirildi. Belə tədbirlərdən biri də "N" hərbi hissəsində baş tutur. Bu gün ordumuza yenicə qədəm qoyan gənc əsgərlərin andiçmə mərasimidi.

Tədbirdə Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-mayor Fuad Məmmədov, general-mayor Xəqani Cəbrayılov, əsgər valideynləri, ictimaiyyət nümayəndələri iştirak edirlər. Tədbir iştirakçıları əvvəlcə hərbi hissənin ərazisində ucaldılmış ümummilli liderimizin büstü önünə gül dəstələri qoydular. Polkovnik-leytenant Daşqın Bənnayev gənc əsgərlərin Hərbi andı qəbul etməyə hazır olmaları barədə general-mayor Xəqani Cəbrayılova raport verdi. Şəxsi heyəti salamlayan zabit onları həm də Dövlət Bayrağı Günü münasibətilə təbrik etdi.



Tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə ünvanlanan təbrik məktubu çatdırıldı. Təbrikdə deyilirdi: "Ordu həyatına yenicə qədəm qoyan gənclərimiz bilməlidirlər ki, əsgər həyatının özünəməxsus çətinlikləri var. Bu yol heç də hamar yol deyildir. Milli-mənəvi dəyərlərimizə yaxından bələd olan, tariximizi yaxşı bilən, Vətənimizi, torpağımızı, xalqımızı ürəkdən sevən, hərb elmini, etibar edilmiş silah və texnikanı müasir tələblər baxımından dərindən öyrənən, komandir və rəislərin əmrlərini layiqincə yerinə yetirən hər bir əsgər bu çətin, lakin şərəfli yolu inamla, uğurla keçəcək və xalqımızın, millətimizin, ölkə rəhbərliyinin hörmət və etibarını qazanacaqdır."

General-mayor Xəqani Cəbrayılov qeyd etdi ki, ordumuz tezliklə Ali Baş Komandan İlham Əliyevin qalibiyyət bayrağı altında qələbədən qələbəyə doğru irəliləyəcək, işğal olunmuş Vətən torpaqlarını azad edərək erməni quldurları üzərində tarixi qələbəni qazanacaqdır.

Əsgər anası İlhamə Quliyeva və əsgər babası Mehrəli Mehrəliyev də çıxış edərək şəxsi heyəti bu gözəl gün münasibətilə təbrik etdilər. Onlar da Hərbi andı qəbul etmiş əsgərlərə tez bir zamanda xalqımıza qələbə müjdəli xəbərlər vermələrini, başları üzərində dalğalanan üçrəngli bayrağı Laçında, Şuşada, Kəlbəcərdə... dalğalandırmağı arzu etdilər.

Gənc əsgər Cavidan Babayev onlara göstərilən yüksək etimadı daim doğruldacaqlarına, Vətənə şərəflə xidmət edəcəklərinə söz verdi. "Bu gündən etibarən biz Azərbaycan Ordusunun sıralarına daxil oluruq. Bu çətin, amma bir o qədər də şərəfli yoldur. Vətəni qorumaq hamının müqəddəs borcudur. Bu gündən etibarən biz əsgərlər söz verdik ki, Ali Baş Komandanımızın, ordu rəhbərliyinin və xalqımızın bizə göstərdiyi etimadı doğrultmaq üçün əlimizdən gələni edəcəyik. Valideynlər bizi Vətənini sevən və daima Vətəninə sədaqətli olan bir şəxs kimi böyütdünüz. Bizlər də sizə tezliklə işğalda olan torpaqlarımızı azad edərək qələbə sevinci bəxş edəcək, yanınıza qalib ordunun əsgəri kimi qayıdacağıq. Qələbə bizimdir!"

M.C.Basayev adına 39 nömrəli tam orta məktəbin şagirdləri isə Hərbi andı qəbul edən gənc əsgərlərimizi ifa etdikləri şeirlərlə təbrik etdilər.

Tədbir başa çatdıqdan sonra general-mayor Fuad Məmmədov, general-mayor Xəqani Cəbrayılov valideynlərlə görüşərək onları maraqlandıran suallara cavab verdilər. Valideynlərlə birgə əsgər yataqxanasına, yeməkxanasına baş çəkdilər və əsgərlər üçün yaradılmış şəraitlə tanış oldular. Sonda yeməkxanada hazırlanmış süfrə arxasında əyləşərək əsgər və onların valideynləri ilə birlikdə nahar etdilər.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

* * *

Hərbi Dəniz Qüvvələrində Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü təşkil olundu.

Hərbi Dəniz Qüvvələrinin qərargah rəisi, 1-ci dərəcəli kapitan Şahin Məmmədov çıxış edərək müstəqilliyimizi bərpa etdikdən sonra bayrağımızın milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrildiyini bildirdi. "Bayraq hər bir dövlətin bütövlük, müstəqillik, yenilməzlik, ucalıq rəmzidir. Bu gün əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir vətəndaşımızın qəlbində qürur və fərəh hissi doğurur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim milli-mənəvi dəyərlərə, dövlətçilik ənənələrinə sadiqliyimizi nümayiş etdirir. Milli bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir."

1-ci dərəcəli kapitan Ş.Məmmədov Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğunun inkişafına daim böyük önəm verdiyini dedi. Şəxsi heyətin xidməti vəzifələrini layiqincə yerinə yetirməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün müasir tələblər səviyyəsində inşa edilən hərbi hissələrin bu diqqətin təzahürü olmasını bildirdi. Hərbi Dəniz Qüvvələrinin ən son texnoloji avadanlıqlarla, gəmilər və katerlərlə təchiz olunduğunu bildirən Ş.Məmmədov istənilən döyüş tapşırığını yerinə yetirmək iqtidarında olduqlarını qeyd etdi. Həmçinin, "Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində "Dəniz Kuboku" müsabiqəsində hərbçilərimizin öz peşəkarlıq və məharətlərini nümayiş etdirərək qazandıqları uğurlardan danışdı.

Qonaqlar Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində gənc matrosların andiçmə mərasimində iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan polkovnik Saleh Kələntərov gənc matrosları və valideynləri təbrik etdi və ən xoş arzularını söylədi. Vətənimiz Azərbaycana, onun xalqına layiqli övlad olmağı, daim Vətənin keşiyində cəsarətlə dayanmağı arzuladı. Hərbi andın qəbul edilməsinin böyük vətənpərvərlik əhəmiyyəti kəsb etdiyini dedi. Hər bir şəxs içdiyi andda Vətənimizə sonsuz məhəbbətini, düşmənə nifrətini ifadə etdiyini vurğuladı. Zabit ordumuzun yüksək döyüş hazırlığından söz açaraq gənc matroslara məsuliyyətli, nizam-intizamlı olmağı, komandirlər tərəfindən verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirməyi tövsiyə etdi. Silah və texnikanın sirlərinə dərindən yiyələnmək, fiziki və mənəvi-psixoloji cəhətdən güclü olmaq üçün səylə çalışmağın vacibliyini diqqətə çatdırdı.



Mayor Eldar Nurəhmədov da gənc matrosları əlamətdar gün münasibətilə təbrik etdi. "Bu gün gənc matroslarımız Vətənə sədaqət andı içdilər. Şübhəsiz, bu gün onların hər birinin yaddaşında ən fərəhli günlərdən biri kimi qalacaq. Müqəddəs Vətəni qorumaq, onun keşiyində durmaq hər bir azərbaycanlı gəncin şərəfli vəzifəsidir. İnanıram ki, matroslarımız öz hərbi xidmətlərini ləyaqətlə davam etdirəcəklər. Bacarıqlı, çalışqan, cəsur hərbi qulluqçular sırasında olmaqla, Vətən qarşısında borclarını şərəflə yerinə yetirəcək və valideynlərini daim öz uğurları ilə sevindirəcəklər."

Gənc matroslar adından çıxış edən Bəhruz Ağaverdiyev bu günün həyatlarında ən məsuliyyətli günlərdən biri olduğunu dedi. "Bu gün Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağımıza təntənəli surətdə and içdik. Vətəni qorumaq hamımızın müqəddəs borcudur. Vətən anlayışının nə demək olduğunu dərk edən hər bir azərbaycanlının uşaq yaşlarından bir arzusu, bir amalı var. Hərbi mundir geyinərək Vətən uğrunda savaşmaq, torpaqlarımızı işğaldan azad etmək. Mən və matros yoldaşlarım adından söz verirəm ki, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sularını və dəniz sərhədlərimizi göz bəbəyimiz kimi qoruyacaq və hərbi gəmilərimizin üçrəngli şanlı bayrağımızı qürurla dalğalandırması üçün hərb elminin sirlərinə, dənizçi təcrübəsinə dərindən yiyələnəcək, vəzifə borclarımızın öhdəsindən ləyaqətlə gələcəyik. Hərbi nizamnamələrin tələblərini sözsüz və dəqiq yerinə yetirəcəyik. Üçrəngli bayrağımızın daim yüksəklərdə dalğalanması üçün canımızı və qanımızı əsirgəməyəcəyik."

Valideynlər adından çıxış edən İbrahim Ağayev gənc matrosları təbrik etdi. Bildirdi ki, Vətənə xidmət etmək hər bir gəncin şərəfli borcudur. "Əsgərlik həyat məktəbidir. Sizlər üçün bu günün sevincini heç bir duyğu əvəz edə bilməz. Vətənin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq sizin üzərinizə düşür. Silahlı Qüvvələrə göstərdiyi yüksək diqqət və qayğıya, hərbçilərimiz üçün yaradılan bu şəraitə görə cənab Ali Baş Komandana minnətdarlığımı bildirirəm. Mən əminəm ki, qısa müddətdə ordumuz şanlı səhifələr yazacaq."

Sonda qonaqlar yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış oldular, əsgər yataqxanasına və yeməkxanasına baş çəkdilər.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Milli Məclisin bir sıra deputatı milli ordumuzun 100 illiyi ilə bağlı yubiley medalı ilə təltif olunub



*Noyabrın 12-də Milli Məclisdə bir sıra deputata "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim olunub.*

AZƏRTAC xəbər verir ki, çıxış edən Milli Məclisin Mətbuat Xidmətinin rəhbəri Akif Təvəkküloğlu tədbirin əlamətdar günə - Konstitusiya Gününə təsadüf etdiyini bildirib.

A.Təvəkküloğlu diqqətə çatdırıb ki, 2018-ci il Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Bu münasibətlə həm Azərbaycanda, həm də ölkəmizdən kənarda xeyli sayda tədbirlər keçirilib. Bu tədbirlər hələ də davam edir. Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi ilə bağlı təntənəli iclas keçirildi. Bu iclasa xarici ölkələrdən xeyli sayda qonaqlar qatıldı. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi ilə əlaqədar möhtəşəm parad keçirildi. Paradda 100-ə yaxın xarici ölkədən nümayəndələr iştirak edirdilər. Dünyanın bir çox aparıcı informasiya vasitələri bu parad barədə reportajlar hazırladılar və informasiyalar verdilər. Bu, hər birimiz üçün qürurvericidir.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Milli Məclisin deputatlarının ordu quruculuğu sahəsindəki fəaliyyətini yüksək dəyərləndirərək bildirib ki, Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ilə bağlı bir sıra tədbirlər keçirilir. Deputatlar həmin tədbirlərdə də fəal iştirak edirlər.

Tədbirin sonunda "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı haqqında Əsasnaməyə müvafiq olaraq Milli Məclis sədrinin müavinləri Bahar Muradovaya və Valeh Ələsgərova, parlamentin komitə sədrləri Əli Hüseynli, Ziyad



Səmədzadə, Eldar İbrahimov, Hadi Rəcəbli, Əhliman Əmiraslanov, Aqiyə Naxçıvanlı, Ülvi Quliyev, Siyavuş Novruzov, Arif Rəhimzadə, İsa Həbibbəyli, Rafael Hüseynov və Səməd Seyidova, deputatlar Aydın Mirzəzadə, Aqil Abbas, Adil Əliyev, Xanlar Fətiyev, Fərəc Quliyev, Hikmət Məmmədov, Elman Məmmədov, Zahid Oruc, Bəxtiyar Sadıqov və Hacı Salayevə respublikanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri əsasında Milli Ordumuzun yaranmasının 100 illiyi ilə bağlı təsis olunmuş yubiley medalı təqdim olunub.

*Ordu və cəmiyyət*

# İgid əsgərlərə salamlar olsun!

Günəşli bir payız səhəridi. Əlamətdarlığı ilə fərqlənən bir gündü. Ruhumuzun, yaddaşımızın yurd yerləri, dədə-babalarımızın xatirələr məskəni, əzəli milli-mənəvi dəyərlərimizi qoruyub-saxlayan, canlı tarix olan dağların əhatəsindəyik. 100 yaşlı Azərbaycan bayrağının işığına yığışmışıq. Əlamətdardır ona görə ki, aprel və Günnüt zəfərlərinə nail olan Azərbaycan əsgərinin davamçılarının andiçmə mərasimidi. Duyğular baş alıb gedir... Ürəklər sevinclə döyünür. Hələlik baxışlar danışır. Sənə elə gəlir ki, hamının ürək döyüntülərini eşitmək mümkündür.

Tədbir başlayır. Çıxışlar bir-birini əvəz edir. Nədənsə gözlərim yol çəkirmiş kimi məchul bir nöqtəyə zillənib. Qarabağ müharibəsi iştirakçısı Mövlan İsmayılovun odlu-alovlu çıxışı məni bu məchulluğun əlindən alır: "Hər kəs həyata bir dəfə gəlir, hər kəs də Tanrının verdiyi ömrü müxtəlif cür yaşayır. Yalnız mərd, xalqını və Vətənini böyük məhəbbətlə sevənlər - qartal xarakterlilər bu uca zirvəyə yüksələ bilərlər. Belə ömür şərəflidir. Həyatda şücaətlər göstərən, Vətən naminə çarpışan qəhrəmanların adı xatirələrdə yaşayır, onların şərəfinə abidələr ucaldılır, əməlləri barədə şeirlər yazılır, mahnılar, dastanlar qoşulur. Sizlərə belə bir şərəfli ömür yaşamağı, torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmağı arzu edirəm.”

Müharibə iştirakçısı çıxışını şeirlə bitirir:

*Aydın olsun gözünüz*
*ey atalar analar,*
*Bu gün əsgər olur*
*bizim igid balalar*
*Geyinəcək əyninə*
*onlar əsgər libası*
*Yollarını gözləyir*
*qalibiyyət davası.*

*Bağlayın bellərinə*
*iti kəsən qılıncı*
*Qoy düşmənin bağrını*
*doğrasın xıncı-xıncı*
*Minib polad atlara*
*səyirdin sola-sağa*
*Qovun o düşmənləri*
*qaçıb girsinlər kola*

*Arxanızda Vətən var*
*Tanrı yar olsun sizə,*
*Qələbə müjdəsi ilə*
*qayıdın evinizə.*

* * *

*Şahin tək göylərdə*
*şığıyan, süzən,*
*Coşqun dənizlərin*
*qoynunda üzən,*
*Qartal baxışını*
*səngərə düzən*
*İgid əsgərlərə*
*salamlar olsun!*
*Üçrəngli bayrağı*
*tutub əlində*
*Nazını çəkəcək*
*hər bir gülün də...*



*Azəri yurdunda,*
*Oğuz elində*
*İgid əsgərlərə*
*salamlar olsun!*
*Qələbə qazanar*
*Azərbaycan da,*
*Bu soraq dolaşar*
*onda hər yanda.*
*Vətən əsgəridi,*
*deyir Mövlan da,*
*İgid əsgərlərə*
*salamlar olsun!*

Tədbirin rəsmi hissəsindən sonra Mövlan İsmayılovla görüşdük.

Mövlan İsmayılovun ilk sözü də Vətən olur, son sözü də: "Vətən dünyaya göz açdığımız doğma el-oba sayılır. Hər kəs öz sevgisi, məhəbbəti, varlığı ilə Vətənini öz şəxsiyyətində yaşatmalıdır. Hər bir Azərbaycan vətəndaşı eli, obası, xalqı üçün yaşamalıdır. Fəxrlə deyə bilərəm ki, elim, obam, xalqım üçün yaşayanların sırasındayam. 1990-1993-cü illərdə Goranboyda, Ağdərədə, Ağdamda torpaqlarımızın azadlığı uğrunda döyüşmüşəm.

Müharibə iştirakçıları yaxşı bilirlər ki, müharibə filmlərdəki kimi, maraqlı və asan olmur. Düşmən gülləsinə sinə gərmək üçün sağlam canın, dəmir iradən, döyüşkən ruhun və ən əsası köksündə Vətən sevgisi ilə döyünən ürəyin olmalıdır. Qarabağ müharibəsində minlərlə cəsur oğul gözlərini qırpmadan, canlarını əsirgəmədən döyüşdü. Vətənin azadlığı və onun torpaqlarının qorunması üçün atılan hər bir addım Vətənin var olması deməkdir və Vətənimizin var olması bizim də varlığımızın təsdiqidir. Torpaqlarımızı işğaldan azad etməliyik.”

Mövlan İsmayılov xidmət etdiyi dövrlə indiki dövrü müqayisə edərək bildirdi ki, ordumuz müqayisəyə gəlməz dərəcədə inkişaf edib: “Azərbaycan Ordusu dünyanın aparıcı orduları sırasındadır. Ordumuz ən müasir silah və texnika, standartlara uyğun məişət şəraiti ilə təchiz olunub. Şəxsi heyətin ruh yüksəkliyi yüksək səviyyədədir. Ordumuz aprel və Günnüt zəfərləri ilə sübut etdi ki, torpaqlarımızı azad etmək iqtidarındadır. Bu gün sıra meydanında Azərbaycan əsgərini görəndə sevincimdən sinəm dağa döndü. İnanırıq ki, övladlarımız ata-babalarımızın qəhrəmanlıq ənənələrini yaşadacaq və xalqımızı sevincə qərq edəcəklər".

Müharibə veteranının tədbirdə iştirakının səbəbkarı gənc əsgər Əli Əliyevin dediklərini veteranın sözünün davamı bildim: "Tezliklə Ali Baş Komandanımızın əmri ilə könüllərin yurd həsrətinə son qoyacağıq. O günə isə az qalıb, lap az."

"Azərbaycan oğullarının bu təpəridi bizi yaşadan, bizə ruh verən", - deyə Mövlan İsmayılov sözünə davam etdi. - Oğlum, milli bayrağımızın Azərbaycan səmasında dalğalanması, bir kərə yüksələn bayrağın bir daha enməməsi üçün minlərlə oğul və qızlarımız canlarını qurban veriblər, qazi olublar. Məqsəd odur ki, Azərbaycan xalqı firavan yaşasın, bir də ağrı-acılı günlər görməsin. Azərbaycan dövləti var olduqca onun üçrəngli müqəddəs bayrağı səmasında dalğalansın. Ali Baş Komandanın qeyd etdiyi kimi Qarabağda, Şuşada, Xankəndidə dalğalansın.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Dövlət Bayrağı Günü Azərbaycan Ordusunda təntənə ilə qeyd edildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, noyabrın 9-da Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə bütün hərbi hissələrdə silsilə tədbirlər keçirildi. Tədbirlərdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.*




Azərbaycan Respublikasının Dövlət Bayrağının qəbul edildiyi gündən 100 il keçir. Bu əlamətdar gün münasibəti ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "Bayrağımız - qürurumuzdur" adlı tədbir keçirildi.

Tədbirin təşkilatçısı Naibə Şəmşiyeva çıxış edərək üçrəngli bayrağımızın yaranma tarixi haqqında iştirakçılara qısaca məlumat verdi: "Dövlət bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edildi və təntənə ilə qaldırıldı. Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi hamımızın yaxşı tanıdığı, görkəmli mütəfəkkir Ə.Hüseynzadədir. Təəssüflər olsun ki, 1920-ci ilin aprelində bolşeviklərin hücumu nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldı. Nəhayət, SSRİ adlanan dövlət 70 ildən sonra çökdü. Bundan sonra əsrin əvvəllərində itirilmiş müstəqilliyimizin bərpası üçün tarixi şərait yarandı. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən toplantıda üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı olaraq rəsmən təsdiq edildi. Beləliklə, Məmmədəmin Rəsulzadənin böyük uzaqgörənliklə söylədiyi "Bir kərə yüksələn bayraq bir daha enməz" kəlamı neçə ildən sonra həyatda özünün həqiqi təsdiqini tapdı.

Ordumuzun şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı altında torpaqlarımızı erməni işğalçılarından azad edəcək. Bu gün aprel döyüşlərində düşməndən geri alınmış Cocuq Mərcanlıda dalğalanan üçrəngli bayrağımız sabah Şuşada, Laçında, Xankəndidə və işğal altında olan digər torpaqlarımızda da dalğalanacaq."

Bayrağımızın yaranması tarixindən bəhs edən video-çarx nümayiş etdirildi. Sonra tədbirin ədəbi-bədii hissəsində bədii qiraətçilərin, dram və musiqi dərnəyinin üzvlərinin iştirakı ilə kompazisiya nümayiş olundu. Kursantlar bayrağı, qəhrəmanlığı və müstəqilliyimizi tərənnüm edən şeirlər söylədilər, hərbi vətənpərvərlik marşları ifa etdilər.

Üçrəngli bayrağımız təntənəli surətdə tədbir keçirilən zala gətirildi və səhnəyə çıxarıldı. Mərasim iştirakçıları 100 yaşlı bayrağımızı ayaq üstə alqışlarla qarşıladılar.

Tədbirin sonunda C.Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Bəkir Orucov Dövlət Bayrağı Günü münasibəti ilə şəxsi heyəti təbrik etdi, onlara xidmətlərində uğurlar arzuladı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**



* * *

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirildi. Tədbirdə hərbi hissənin zabit və əsgər heyəti iştirak edirdi.

Tədbiri giriş sözü ilə açan Əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev iştirakçıları salamlayaraq qürur mənbəyimiz, milli-mənəvi dəyərimiz, müstəqilliyimizin və azərbaycançılığımızın rəmzi olan bayrağımızın rolundan geniş bəhs etdi: "Azərbaycanın üçrəngli bayrağı dövlət rəmzi olaraq Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il 9 noyabr tarixli iclasında qəbul olundu. 1920-ci il aprelin 28-də bolşevik işğalından sonra AXC-nin bayrağı Azərbaycan SSR-nin qırmızı rəngli oraq-çəkicli bayrağı ilə əvəzlənib. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in Dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda, həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin qərarı ilə hazırkı üçrəngli və ay-ulduzlu bayraq müstəqil respublikanın Dövlət bayrağı elan edilib".

Z.İmamquliyev onu da qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə 9 Noyabr Dövlət Bayrağı Günü kimi dövlət səviyyəsində hər il qeyd olunur.

Hərbi hissənin zabiti polkovnik-leytenant Rizvan Mustafayev Azərbaycanın müstəqillik rəmzi olan Dövlət bayrağının yaranması tarixindən danışdı. Xalqımızın öz torpağına, dövlətçiliyinə və tarixinə sonsuz sevgisindən bəhrələndiyini, üçrəngli bayrağımızın illər sonra yenidən göylərə yüksəldiyini, başımızın üstündə əzəmətlə dalğalandığını vurğuladı. Qeyd etdi ki, bu gün Azərbaycan özünün milli hərbi sənayesinə malikdir, silah-sursat istehsal edir: "Məhz bunların nəticəsidir ki, 2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin may ayında Naxçıvanda Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları nəticəsində torpaqlarımızın bir hissəsi düşmən işğalından azad edildi. Azərbaycan Ordusu Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmri ilə digər torpaqlarımızı da tez bir zamanda düşmən tapdağından azad edəcəkdir".

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin rəngarəng çıxışları ilə sona çatdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

* * *

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 9 Noyabr Dövlət Bayrağı Gününə həsr olunmuş "Bayrağımız - qürurumuzdur" mövzusunda tədbir keçirildi.

Naxçıvan Qarnizonunun şəxsi heyəti ilə keçirilən tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabiti Naib Cəfərov Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzi kimi qəbul edilən bayrağımızın 70 ildən sonra ilk dəfə 1990-cı il noyabrın 17-də Naxçıvanda ümummilli liderimiz Heydər Əliyev tərəfindən qaldırıldığını qeyd etdi. Bu gün üç rəngli, ay-ulduzlu bayrağımız Azərbaycan səmasında əbədi olaraq qürurla dalğalanır.

Sonra Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov və polkovnik-leytenant Zaur Həmidov çıxış edərək bildirdilər ki, bayraq Vətənə sədaqətin simvoludur. Çünki ata-babalarımız döyüşlərə atılan zaman başları üzərində Vətən bayrağı olub. Bunun nəticəsidir ki, min illərdir bayraq xalqımız üçün qürur mənbəyidir.




Çıxışların ardından video-çarx nümayiş olundu, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları ədəbi-bədii kompazisiya ilə çıxış etdilər.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupunun üzvləri konsert proqramı ilə əsgərlər qarşısında çıxış etdilər.

Sonda "İnam" musiqi qrupunun üzvləri, şagird və kursantlar Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən fəxri fərmanla təltif edildilər.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

* * *

"N" hərbi hissəsində Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə Dövlət Bayrağı Gününə həsr edilmiş möhtəşəm bayram tədbiri keçirildi.

Tədbiri giriş sözü ilə açan Əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev bildirdi ki, hər bir xalqın müqəddəs rəmzlərindən olan bayraq onun varlığının, mövcudluğunun sübutu, dövlət qürurunun və ona sahib çıxmaq bacarıqlarının əsas göstəricisidir. "Üçrəngli bayrağımız ilk dəfə dövlət rəmzi kimi Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il noyabrın 9-da keçirilən iclasında qəbul olundu. Bayrağımızın mavi rəngi - xalqımızın türk mənşəli olmasını, qırmızı rəngi - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəngi - islam sivilizasiyasına mənsubluğunu ifadə edirdi. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Ancaq 1920-ci ildə bolşevik işğalının nəticəsində bu bayraq tarixə qovuşdu. Müstəqilliyimizin əsas atributlarından olan həmin üçrəngli bayraq ikinci dəfə məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olundu. Sonralar bu bayraq müstəqil Azərbaycanın Dövlət bayrağı elan edildi. Üçrəngli bayrağımız hər birimiz üçün müqəddəsdir, qürur və güvənc yeridir. Bunun bariz nümunəsi kimi, Ali Baş Komandan İlham Əliyevin 2009-cu ildə imzaladığı sərəncama əsasən, noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd olunduğunu göstərmək olar".

Polkovnik İlqar Lətifov isə bildirdi ki, bayraq dövlətin və xalqın kimliyinin, Vətən övladlarının apardığı azadlıq mübarizəsinin təfəkkür və düşüncə tərzinin, mənəvi dünyasının ən şəffaf və dəqiq meyarıdır.

\- Azərbaycanın suverenliyinin və müstəqilliyinin rəmzi olan üçrəngli bayraq varlığımızı və tariximizi özündə cəmləşdirən vacib atributdur. O hamımızın qürur mənbəyi, and yerimizdir. Bayraq elə bir qüdrətdir ki, hər bir Azərbaycan əsgəri onun qarşısında xalqımıza sədaqət andı içir. Bayraq elə bir cəsarətdir ki, 1990-cı il yanvarın 20-də soydaşlarımızı bir an belə tərəddüd etmədən xalqın azadlıq arzusunu boğmaq və məhv etmək istəyən zirehli tankların altına apardı. Bayraq elə bir müqəddəs varlıqdır ki, onun altında ölmək şərəflidir. Necə ki, bu bayrağın dalğalanması üçün minlərcə qəhrəmanlarımız şəhid oldular. İndi bu bayrağı uca tutmaq hər birimizin borcudur. İnanıram ki, bizlər də tez bir zamanda xalqımızın etimadını doğruldaraq üçrəngli bayrağımızı Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında işğal altında olan torpaqlarımızda dalğalandıracağıq", - bu sözləri polkovnik İlqar Lətifov dedi.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin rəngarəng çıxışları ilə davam etdi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda komanda-qərargah hərb oyunları keçirilir

*Azərbaycan Ordusunun 2018-ci ilin hazırlıq planına əsasən, noyabrın 12-də komanda-qərargah hərb oyunları (KQHO) başlayıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş əməliyyatlarında idarəetmə orqanlarının qarşılıqlı fəaliyyət səviyyəsinin yoxlanılması və təkmilləşdirilməsi məqsədilə keçirilən hərb oyunlarına strateji, əməliyyat, əməliyyat-taktiki və taktiki idarəetmə orqanları, qoşun növləri və qismləri, eləcə də xüsusi təyinatlı qüvvələr cəlb edilib.

KQHO-da kosmik texnologiyaların tətbiqi ilə qoşunların fasiləsiz idarə edilməsini təmin etmək üçün məlumatların sürətli ötürülməsi, əməliyyat şəraitinə uyğun dərhal qərarların qəbul edilməsi və digər vərdişlər icra olunacaq.

* * *

Azərbaycan Ordusunun hazırlıq planına əsasən, keçirilən komanda-qərargah hərb oyunları davam edir.

Döyüşü idarəetmə mərkəzində keçirilən növbəti toplantıda tapşırıqlar dəqiqləşdirilib və taktiki müdaxilələr üzrə fəaliyyətlər icra olunub.

Birbaşa videobağlantı vasitəsilə birlik və birləşmələrin vəzifəli şəxslərinin tapşırıqların icrası ilə bağlı məruzələri dinlənilib və onlara yeni tapşırıqlar çatdırılıb.

# “Ümid edirik, Paşinyan anlayır ki, Paris Sülh Forumundakı çıxışı Ermənistanın xarici siyasəti ilə tamamilə ziddir”

Ümid edirik, Ermənistanın baş naziri vəzifəsini yerinə yetirən Nikol Paşinyan anlayır ki, Paris Sülh Forumunda etdiyi çıxış Ermənistan Respublikasının xarici siyasəti ilə tamamilə ziddiyyət təşkil edir. Məhz Ermənistan beynəlxalq hüququn fundamental prinsiplərini, xüsusilə də güc tətbiq etməmək prinsipini pozaraq Azərbaycan ərazilərini işğal edib və tarixən Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlını öz evlərində yaşamaq hüququndan məhrum edib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva KİV-ə açıqlamasında bildirib.

Leyla Abdullayeva deyib: "Məgər öz müqəddəratını təyinetmə eyni bölgədə yaşayan digər etnik qruplara qarşı etnik təmizləmənin həyata keçirilməsi deməkdir? Məgər beynəlxalq hüququn aliliyi əraziləri işğal etmək və sonra da zor gücünə işğalın nəticələrini həll yolu kimi qəbul etdirmək deməkdir? Bu suallara elə Paşinyanın çıxışında istinad etdiyi fundamental prinsiplərin özü cavab verir. Bunun üçün BMT Nizamnaməsini və Helsinki Yekun Aktını oxumaq kifayətdir. Oxumaq istəməyənlər və ya oxuduqlarını anlamaq istəməyənlər üçün sitat gətirirk: "Dövlətlər xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etməsi hüququna hər zaman BMT Nizamnaməsinin məqsəd və prinsipləri, beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun olaraq hörmət etməlidir". Beynəlxalq forumlarda çıxış edərək sülhdən, daha yaxşı gələcəkdən danışmaq, əlbəttə, yaxşıdır. Lakin ən vacibi sadəcə bəyanatlar verməklə kifayətlənməmək, verdiyin bəyanatlara uyğun davranmaqdır, hərəkət etməkdir. Bölgənin və Ermənistanın özünün daha yaxşı gələcəyi bilavasitə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalına son qoyulması və məcburi köçkünlərin öz evlərinə geri qayıtması ilə əlaqədardır".

# “Konflikt jurnalistikası məktəbi”nin növbəti auditoriya təlimi

*Noyabrın 10-da Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Hərb Tarixi Muzeyində növbəti auditoriya təlimi keçirildi. Təlimdə Müdafiə Nazirliyinin əməkdaşları, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri və ictimaiyyət nümayəndələri iştirak etdilər.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə təlimalanları salamlayaraq muzeyin fəaliyyəti haqqında geniş məlumat verdi: "Azərbaycan Hərb Tarixi Muzeyi 1992-ci ilin oktyabrından fəaliyyətə başlayıb. Muzeyimiz iki ekspozisiya hissəsindən ibarətdir. Açıq Səma altında olan ekspozisiyada Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə və Hərbi Dəniz Qüvvələrinə aid müxtəlif növ hərbi texnikalar nümayiş etdirilir. Hal-hazırda muzeyimizdə 12 zal fəaliyyət göstərir. Ekspozisiyada qədim dövrdən müasir dövrədək hərb tariximizin inkişaf mərhələləri xronoloji ardıcıllıqla əks etdirilir. Muzeyimizdə Azərbaycan hərb tarixinə dair 12 minə yaxın eksponat mühafizə olunur. Burada, həmçinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarımız var. Mütəmadi olaraq ümumrespublika səviyyəli elmi-praktik konfranslar, tədbirlər keçirilir. Bununla da muzey hərbi vətənpərvərlik hisslərinin formalaşmasına və yüksəldilməsinə öz töhfəsini verir."

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov təlimalanlara informasiya təhlükəsizliyi barədə geniş məlumatlar verdi: "İnformasiya təhlükəsizliyi dedikdə, informasiyanın və informasiya mühitinin təsadüfi və ya düşünülmüş, təbii və ya süni xarakterə malik təsirlərdən müdafiə vəziyyəti başa düşülür. Belə təsirlər informasiyaya və ya informasiya obyektlərinə, həmçinin informasiya istifadəçisinə və sahibinə yolverilməz ziyanlar vura bilir. İnformasiyanın mühafizəsi - informasiya təhlükəsizliyinin təmin olunması üçün həyata keçirilən kompleks tədbirlərdir. İndiki zamanda informasiyanın təhlükəsizliyi informasiyanın ən çox yayılmış üç əsas xüsusiyyətinə əsaslanır: konfidensiallıq, tamlıq və əlçatanlıq. İnformasiyanın konfidensiallığı həddindən artıq məhdud dairədə olan insanlar ilə tanış olmağın mümkünlüyünü ifadə edir. Bu insanlar informasiya sahibləridirlər. Əgər informasiyanı bu şəxslərdən başqa icazəsi olmayan digər şəxslər də istifadə edə bilirlərsə, onda informasiyanın konfidensiallığı itmiş olur. Bəzi informasiya növləri üçün konfidensiallıq əsas atribut sayılır.



İnformasiyanın tamlığı onun təhrif olunmamış şəkildə saxlanma bacarığını müəyyənləşdirir. Səlahiyyəti olmayan, qabaqcadan nəzərdə tutulmamış istifadəçi tərəfindən informasiyanın itirilməsi onun tamlığının itirilməsinə səbəb olur.

İnformasiyanın əlçatanlığı sistemdəki informasiya obyektinə müvafiq səlahiyyət sahibi olan istifadəçinin ona mənsub olan vaxt ərzində həmin obyektə maneəsiz daxilolma xüsusiyyətinin müəyyən edilməsidir. İnformasiyanın bloklanması və ya məhv edilməsi əlçatanlığın itməsinə gətirib çıxarır. Əlçatanlıq informasiya sisteminin maliyyələşdirilməsinin əsas atributudur".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti Əfqan Əliyev iştirakçıları salamlayaraq bildirdi ki, 2016-cı ildə cəbhədə baş verən hadisələr zamanı ictimaiyyətə yoxlanılmamış informasiyalar təqdim edilib və bəzi jurnalistlərin fəaliyyəti qənaətbəxş olmayıb. "Qoşunların təmas xəttində yaranan gərginlik zamanı məlumatı ictimaiyyətə ilk mənbədən, dəqiq, müvafiq qurumla razılaşdırılmış şəkildə çatdırmaq lazımdır. Bu məqsədlə jurnalistlərin hərbi biliklərinin artırılması və hərbi qulluqçuların KİV-lərlə işləməsi ilə bağlı təlimat hazırlanaraq hərbi hissələrə göndərilib. Qeyd edim ki, Müdafiə Nazirliyinin Mətbuat Xidməti informasiyanın mediaya ötürülməsi üçün zəruri işləri görür. Həmçinin jurnalistlər hərbi hissələrə getmək üçün qeydiyyatdan keçirlər."

Auditoriya təlimindən sonra iştirakçılar Hərb Tarixi Muzeyinin eksponatları ilə yaxından tanış oldular.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 935
Nüsxə 3525